# Fətəli xan Xoyskinin siyasi baxışları və dövlətçilik fəlsəfəsi



**Azərbaycan Xalq Cümhuriyyəti (AXC) milli dövlətçilik tariximizin ən mühüm mərhələlərindən biridir. 1918-ci il mayın 28-də elan edilən bu respublika Şərqdə ilk parlamentli-demokratik dövlət kimi tarixə düşmüşdür. AXC-nin dövlət quruculuğu prosesi yalnız milli kimlik və azadlıq ideyalarının təcəssümü deyil, həm də müasir idarəçilik mədəniyyətinin əsasını qoymaq baxımından xüsusi əhəmiyyət daşıyırdı. Bu tarixi prosesdə önəmli rol oynayan siyasi xadimlər arasında Fətəli xan Xoyskinin adı xüsusi olaraq çəkilməlidir.**

Fətəli xan Xoyski Moskva Dövlət Universitetinin Hüquq fakültəsində oxuduğu müddətdə (1891-1897) Avropanın hüquqi və siyasi düşüncəsini əxz etmiş, liberal-demokratik ideyalarla tanış olmuşdur. İlk növbədə qeyd edək ki, bəzi qaynaqlarda Fətəli xan Xoyskinin siyasi mənsubiyyəti, Kadet Partiyasına mənsubluğu kimi göstərilmişdir. II Dövlət Dumasının Stenoqrafik hesabatlarında isə Xoyskinin şəxsi məlumatları belə bildirilmişdir: "Xoyski Xan Fətəli İskəndər oğlu - türk-müsəlman, 30 yaşlı, ali hüquq təhsilli, Dumanın fəaliyyətinə qədər prokuror müavini vəzifəsində çalışmış, Müsəlman Fraksiyasının üzvü".

1919-cu il dekabrın 2-11-də Bakıda Türk Ədəmi-Mərkəziyyət Müsavat Partiyasının ikinci qurultayı keçirilərkən, çıxışı zamanı F.Xoyski qeyd etmişdir ki, "Bir sıra səbəblərə görə, mən indiyədək heç bir partiyaya daxil olmamışam. Buna görə də hər bir partiyanın fəaliyyətini kənardan müşahidə edirəm, ona qərəzsiz qiymət vermək mənim üçün asandır... ".

Fəaliyyətinin ilkin dövrlərində siyasi baxışlarına görə liberal-demokrat dünyagörüşünə malik Fətəli xan Xoyskinin mövqeyi Kadetlərin siyasi baxışlarına uyğun gəlsə də, o, nə Rusiya imperiyası dövründə, nə də Azərbaycan Xalq Cümhuriyyəti illərində hər hansı siyasi partiyanın üzvü olmuşdur. 1907-ci ildə Rusiya İmperiyasının II Dövlət Dumasına deputat seçilmiş Xoyski burada Müsəlman fraksiyasının fəal üzvlərindən biri olmuşdur.

F.Xoyskinin siyasi baxışlarını Kadet Partiyasının 1907-ci ilin mayın 18-də hazırlayaraq 173 deputatla birlikdə Dövlət Dumasına təqdim olunan "Milli və ya dini mənsubiyyətlə bağlı hüquqlardakı məhdudiyyətlərin ləğvi haqqında qanun layihəsi"ndə yer alan prinsiplərlə müəyyən edə bilərik. Məlumdur ki, bu qanun layihəsini imzalayanlardan biri də Fəytəli xan Xoyski idi. Dövlət Dumasına təqdim olunan bu layihədə vətəndaşların dini və milli mənsubiyyətindən asılı olmayaraq mövcud olan bütün hüquqi məhdudiyyətlərinin aradan qaldırılmasının zəruriliyi qeyd edilirdi. Həmçinin layihədə Rusiya vətəndaşlarına peşə seçimi azadlığı, dövlət və ictimai xidmətdə bərabər hüquqlar, şəxsi toxunulmazlıq, söz və mətbuat azadlığı, təhsil almaq hüququ və digər təminatların verilməsi tələb olunurdu. Xoyskinin də bu qanunu dəstəkləməsi onun liberal-demokratik dəyərlərə sadiqliyinin göstəricisi idi. Xüsusilə qeyd edək ki, onun dünyagörüşündə ilk milli dövlət ideyasının təməlləri bu dövrdə formalaşmağa başlamışdır. Onun siyasi baxışlarına görə, dövlətin dayağı xalqın suveren iradəsi, azad yaşamaq haqqı və siyasi-hüquqi bərabərliyidir. Məhz Dövlət Dumasına təqdim olunan layihədəki prinsiplər Xoyskinin dövlətçilik baxışlarının ilkin siyasi-hüquqi konturlarını ortaya qoyurdu. O dövr Xoyski liberal və modernləşmiş hüquqi düşüncəyə malik ziyalı kimi çıxış edirdi və hüququn aliliyi prinsipini ön planda tuturdu. Onun tənqid obyektləri əsasən çar hakimiyyətinin qanunları və sərt mərkəzləşdirilmiş idarəetmə sistemi olmuşdur ki, bunlar həm məhdud, həm də dövrün ictimai-siyasi tələblərinə cavab vermirdi.

Xoyskinin sonrakı mərhələlərdə siyasi baxışları daha da konkretləşməyə doğru inkişaf etmişdir. Xüsusilə də digər milli-demokratik ziyalılar kimi I Dünya müharibəsindən müsbət gözləntilər Xoyskinin də əsas istəklərindən idi. Proqressiv Azərbaycan ziyalıları, zahirən hökumətə loyal münasibət göstərsələr də, bu müharibənin nəticələrini öz xalqı üçün müəyyən qədər əlverişli məcraya yönəltməyə ümid edirdilər. Bu baxımdan AXC-nin baş naziri olmuş Fətəli xan Xoyskinin 1915-ci ildə söylədiyi sözlər xüsusilə səciyyəvidir. Xoyski yazırdı: "Müharibədən sonra hər şey dəyişəcək, güclü dövlətlər ondan zəifləmiş və yaralanmış şəkildə çıxacaqlar və o zaman bizim öz şərtlərimizi diktə etmək dövrümüz yetişəcək ki, bu da bizim üçün azadlıq deməkdir. Bu azadlıq isə bizim gücümüzdən, sərvətlərimizdən və neftimizdən qaynaqlanır. Buna görə də unutmayın: dünya bizə, bizim dünyaya olduğumuzdan daha çox möhtacdır". Həqiqətən də Xoyskinin söylədiyi perspektiv vəd edən bu siyasi fikirləri gerçək həqiqəti əks etdirir, Rəsulzadə və digər milli-demokratik ziyalıların fikirləri ilə səsləşirdi. Ümumiyyətlə, Xoyskinin 1907-1917-ci illər siyasi baxışlarını təhlil edərkən bu qənaətə gəlirik ki, həmin dövrdə konkret siyasi mənsubiyyəti olmayan Xoyski liberal-demokratik baxışları ilə seçilmiş, çar Rusiyası hüdudları daxilində yaşayan xalqların hüquq bərabərliyi, insan hüquq və azadlığının təmini prinsiplərini müdafiə etmiş, etnik və dini ayrı-seçkiliyə qarşı mübarizə aparmışdır.

1917-ci il Oktyabr çevrilişindən sonra Fətəli xan Xoyskinin siyasi baxışlarında müstəqillik ideyaları özünü daha qabarıq göstərməyə başladı. Bu dövrdə o, Cənubi Qafqazın vahid siyasi birlik kimi müstəqil olması fikrini dəstəkləyir və bu mövqeyi öz çıxışlarında xüsusi olaraq vurğulayırdı.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti öz müstəqilliyini elan etdi. Bu tarixi hadisə Fətəli xan Xoyskinin uzun illər ərzində formalaşan siyasi dünyagörüşündə yeni ideyaların əsasını qoydu. Artıq həmin dövrdən etibarən Xoyskinin baxışlarında yeni mərhələ başlayır - liberal-demokratizm mövqeyindən milli-demokratiya prinsiplərinə keçid. Bu ideoloji mövqe onun dövlətçilik fəlsəfəsinin əsasını təşkil edir və ilk müstəqil milli Azərbaycan dövlətinin quruculuğunda mühüm rol oynayırdı. Cümhuriyyətə qədərki dövrdə Xoyski Rusiyada idarəçilik və qanunvericilik sahəsində hüquqi və demokratik prinsipləri ön plana çıxarırdısa, Cümhuriyyət qurulduqdan sonra onun fəaliyyəti daha çox milli dövlətçilik prinsiplərinin praktik olaraq həyata keçirilməsinə, suverenliyin qorunmasına və müstəqil Azərbaycanın beynəlxalq müstəvidə tanınmasına yönəlmişdi. Bu baxış onun həm baş nazir, həm də digər dövlət vəzifələrindəki fəaliyyəti dövründə həyata keçirdiyi siyasətdə aydın şəkildə görünürdü.

Xoyskinin dövlətçilik fəlsəfəsinin əsasını, fəaliyyəti dövründə əməli şəkildə həyata keçirməyə çalışdığı və hər zaman sadiq qaldığı əsas prinsiplər - millətin hüququ, istiqlalı və hürriyyəti təşkil edirdi. Bu prinsipial mövqe 1918-ci il dekabrın 7-də AXC Parlamentinin birinci iclasında Azərbaycan Hökumətinin fəaliyyəti barədə hesabatı zamanı bir daha özünü göstərmişdir. Cümhuriyyətin hökumət başçısı nitqində deyirdi: "Möhtərəm Azərbaycan parlamenti əzası! Bugünkü gün Azərbaycan üçün böyük mübarək gündür ki, bunu yuxumuzda görməzdik, əqlimizə belə gəlməzdi. Bu gün o gündür ki, muxtariyyəti əlinizə aldınız. Hökumət vəkalətilə bu bayram günü sizi və sizinlə bərabər özümüzü də təbrik edirəm. Bu qısa zamanda qüvvəmiz qədər vəzifəmizi də ifa etdik. Hələ çox şey edə bilməmişik, amma bunu qətiyyətlə deyə bilərəm ki, hökumətin nöqsanları ilə bərabər yol göstərən işıqlı ulduzu bu şüar olmuşdur: MİLLƏTİN HÜQUQU, İSTİQLALI, HÜRRİYYƏTİ!"

Fətəli xan Xoyski istər Zaqafqaziya Seyminin fəaliyyəti dövründə, istərsə də müstəqillik dönəmində Cənubi Qafqazın siyasi birliyinin tərəfdarı olmuşdur. Onun 21 dekabr 1919-cu il tarixdə Bakıda keçirilən Azərbaycan-Ermənistan konfransında çıxışı da bunu təsdiq edir: "...Bizim nümayəndə heyətimiz hesab edir ki, Zaqafqaziya xalqlarının müstəqil varlığının və gələcək inkişafının əsasında dayanmalı olan əsas məsələ - siyasi və iqtisadi birliyin müəyyən formasıdır. Bu birliyi siyasi nəzəriyyədə müstəqil və suveren dövlətlərin konfederasiyası adlandırmaq olar. Biz inanırıq ki, konfederasiya ideyası Zaqafqaziya respublikalarına müstəqillik ideyasını həm formal, həm də faktiki cəhətdən möhkəmləndirmək üçün lazımi siyasi çərçivə verə bilər. Bu konfederativ sistem daxilində iqtisadi və ticarət əlaqələrinin də tam şəkildə tənzimlənməsi mümkün olacaqdır".

Paris sülh konfransı tərəfindən Azərbaycanın istiqlaliyyətinin tanınmasına həsr olunmuş AXC Parlamentinin təntənəli iclasında xarici işlər naziri F.X.Xoyskinin 14 yanvar 1920-ci ildə çıxışı xüsusi önəm daşıyır. O çıxışında deyirdi: "Bu gün ingilis nümayəndəsi bizə bildirdi ki, lord Kerzon sülh konfransında təklif etmiş ki, Azərbaycan və Gürcüstan istiqlaliyyətləri təsdiq olunsun. Sülh konfransı nümayəndələri bu təklifi qəbul etmişlər. Bu xəbər bizdən ötrü böyük bayramdır. Bu yalnız bizim üçün deyil, ümumi türk milləti və ümumi türk aləmi üçün böyük bir bayramdır. Böylə bir günü dərk etmək üçün qeyri-millətlər on illər ilə çalışmışlar. Biz isə onu az müddətdə bir il yarım içərisində qazandıq... Bugünkü bayram münasibətilə sizi hökumət tərəfindən təbrik edirəm. Özümü artıq dərəcədə xoşbəxt hesab edirəm ki, istiqlaliyyətimizi elan edən zaman da hökumət başında mən idim. İndi də təsdiqini sizə mən elan edirəm".

Fətəli xan Xoyski şəxsiyyəti haqqında dövrün bir çox xadimləri dəyərli fikirlər səsləndirsələr də, onun fəaliyyətini və xarakterinin mahiyyətini ən təbii, ən səmimi ifadə edənlərdən biri cümhuriyyət qurucularının görkəmli siması - Xəlil bəy Xasməmmədov olmuşdur. Xasməmmədovun Xoyski barədə söylədikləri həm bir silahdaşın etirafı, həm də bir dövlət adamının qəlbindən süzülüb gələn həqiqət idi. Xəlil bəy Xasməmmədli 1933-cü ildə Azərbaycan Yurd Bilgisi jurnalında yazdığı "28 Mayısın Büyük Kurbanı Feth Ali Han" adlı məqaləsində yazırdı: "Azərbaycanla doğulub, Azərbaycanla sönən bir ulduz olan Fətəli xana Azərbaycanla bərabər ağlamamaq mümkün deyildir. "Əsləni aristokrat, qəlbən demokrat", "dövlətşünas", "qanunçi", "dərin zəka sahibi olan Fətəli xan səmimi milliyyətpərvər və sınmaz iradəli bir dövlət adamı idi... "Qırmızı imperializmin zorakı işğalı" ilə "Azərbaycanın müstəqilliyinin düşmənləri, Azərbaycanın ideallarının zəhərli qatilləri, qanlı əllərini mərhuma uzatdılar. Onu yalnız öz xalqına xidmət etdiyinə və ölkəsinə olan dərin bağlılıq və məhəbbətinə görə, ana torpağından uzaq, qürbət əllərin küçələrində qəddarcasına qətlə yetirdilər. Milli Cümhuriyyətimizin təməllərini qoyanlardan biri, əziz dostumuz, qatil və məkruh millətin gülləsi ilə istiqlaliyyətə gözünü yumdu. Bu itki milli Cümhuriyyətin münəvvər zümrəsinin bel sümüyünə endirilən zərbələrdən bəlkə ən həssası və ilki idi".

Xəlil bəy Xasməmmədov həmçinin böyük bir ürək yanğısı ilə arzu edirdi ki, "Azərbaycan yenidən müstəqilliyinə qovuşduqda, bu məmləkətin övladları mərhum Fətəli xanın cəsədini - onun qəlbimizdə yaşayan əziz ruhu ilə birgə - vətənə gətirəcək və onun xatirəsinə layiq, qürurverici bir abidə ucaldacaqlar".

Xoyskinin dövlətçilik fəlsəfəsi milli dövlət quruculuğu, siyasi və sosial-iqtisadi islahatlar, beynəlxalq hüquqa hörmət, daxili işlərə müdaxilədən çəkinmək, suverenliyin qorunması və qonşu dövlətlərlə dostluq münasibətlərinin inkişaf etdirilməsi kimi prinsiplərə əsaslanırdı. Onun diplomatik fəaliyyəti göstərirdi ki, Azərbaycan hökuməti həm regionda sabitliyin təmin olunmasına, həm də ölkənin beynəlxalq miqyasda tanınmasına böyük əhəmiyyət verirdi.

Beləliklə, Xoyskinin siyasi baxışları və dövlətçilik fəlsəfəsi milli suverenliyin qorunması, demokratik idarəetmə, azərbaycançılıq ideyasının möhkəmləndirilməsi və qonşularla qarşılıqlı əməkdaşlıq kimi fundamental prinsiplərə söykənirdi. Bu isə onun Azərbaycanın dövlət quruculuğu və diplomatiyasında oynadığı mühüm tarixi rolu daha aydın ortaya qoyur.

***Mübariz AĞALARLI,***
***tarix üzrə fəlsəfə doktoru, dosent***

Azərbaycan.- 2025.-30 dekabr (№274).- S.22.